# Mənalı ömür

**İslam Ağakərimov**
*filologiya üzrə fəlsəfə doktoru*

Deyillər, ömür İlahi qismətidir, lakin onu necə yaşamaq insanın özündən asılıdır. Özü istədiyi kimi, yəqin ki, çoxları yaşaya bilər, lakin bu cür həyatda kiminsə üçün, yaxud kimlər üçün nəsə eləməyi heç də hamımız qarşımıza vəzifə kimi qoymuruq. Mübaliğəsiz demək olar ki, Agarəhim müəllim çox iş görmüşdür, çox böyük uğurlara nail olmuşdur. Vaxtı ilə yaxınlarının ən böyük uğuru saydıqları sadə kənd müəllimliyindən bu gün xalqının, millətinin haqlı hörmətlini qazanmış mötəbər bir ziyalı, cəfakeş pedaqoq, özünəməxsus qələm sahibi kimi səviyyəyə yüksəlmişdir.

Ağarəhim müəllimin çoxcəhətli fəaliyyəti; heç bir şərh olmadan onun əməksevərliyinin, cəmiyyət üçün nəsə eləməyinin göstəricisidir. İstedadlı yazıçı, dramaturq son vaxtlar səhhətindəki bəzi problemlərə baxmayaraq, şəxsi fəaliyyəti və qələmi ilə xalqının mənəvi dayaqlarına tuşlanmış istənilən təhlükəyə qarşı yorulmaz mübarizə aparır.

Yazıçı – pedaqoq yaratdığı çoxsaylı roman, povest, dramları və elmi-pedaqoji tədqiqatları arasında ən böyük, daha dəqiq desək, şah əsəri olan Bakı Qızlar Universiteti ilə özünə sağlığında abidə qoymuşdur. Ölkəmizdə, keçmiş Sovet məkanında, hətta deyərdik ki, bölgədə analoqu olmayan bu təhsil ocağını Ağarəhim müəllim sıfırdan qurmağa başlamışdı.

Dünyada, Yaxın Şərqdə qızlar üçün qapalı və açıq məktəblər həmişə olmuşdur. Lakin Bakı Qızlar Universitetində milli mentalitetə dayanan müasir sivil, dünyəvi prinsiplər mövcuddur. Burada sözün əsl mənasında, Avropa və Şərq mədəniyyətlərindən kifayət qədər təbii, normal bəhrələnmə mühiti mövcuddur.

Gözümüz önündə bir çox özəl məktəblər yaradıldı, fəaliyyət göstərdi, dağıldı. Yeri gəlmişkən qeyd edək ki, bu təhsil ocağında mövcud olan unikal elmi-pedaqoji kollektiv özünün formalaşmağında hər şeydən öncə şəxsən Ağarəhim müəllimə olan səmimi rəğbətlə birbaşa bağlıdır. Abı-havaya yad insanlar çox qısa müddətdən sonra buradan uzaqlaşmalı olurlar. Ağarəhim müəllimin prinsipiallığı, gərgin və yorulmaz fəaliyyəti nəticəsində universitetdə formalaşmış fəaliyyət qaydaları, şəffaflıq, insanlara münasibət dəyişməz ənənənin, ciddi nizam-intizamın nümunəsinə çevrilmişdir. Bir dəfə universitetin yubiley tədbirində “bu tələbələr bizim analarımız, bacılarımız, övladlarımızdır“ deməklə Ağarəhim müəllim səmimi şəkildə demək olar ki, hər şeyi ifadə etmiş oldu.

Ağarəhim müəllimi ilk dəfə görən hər kəsdə bəzən qaraqabaq və bir qədər nədənsə narazı insan təsəvvürü yarana bilər. Əslində bu insan son dərəcə maraqlı müsahib, iç dünyası kifayət qədər zəngin həmsöhbətdir. O ki, qaldı “narazı” görkəm məsələsinə, əslində bu cizgi onun özünə və başqalarına olan tələbkarlıqdan, habelə həyatdakı bir sıra ədalətsizliklərə, mənəvi, etik nizamsızlığa münasibətdən irəli gəlmiş bir xüsusiyyətin göstəricisidir. Bu xüsusiyyət illərlə formalaşmışdır.

Yazıçı-pedaqoq bütün həyatı boyu biganəlik, laqeydlik kimi naqis vərdişlərlə barışmaz mövqedə dayanıb. Onunla təmasda olduqca, onun bir-birindən maraqlı əsərlərini oxuduqca bir daha əmin olursan ki, həyatda, cəmiyyətdə üzləşdiyimiz bəlaların, bədbəxtliklərin çoxu məhz bu biganəliyin, məsuliyyətsizliyin ucbatından baş verir.

İnsan psixologiyasını, həyatın yazılmamış qanunlarını çox gözəl bilən bu müdrik insan bəzən bir çox ziddiyyətləri öz içində boğmağa çalışır. Bir də görürsən, elə məsələlər olur ki, onları ağartmamaq, zamanın hökmünə buraxmaq istəyir, o hətta öz övladı kimi ərsəyə

gətirdiyi əsərini utanmadan plagiat edənlərə yalnız susmaqla cavab verir .

Az-çox bədii yaradıcılıqdan xəbərdar olan adamlar yaxşı bilirlər ki, sənətkar digər insanlardan fərqli olaraq adi həyat hadisələrinə belə dərindən nüfuz etməyi, onları içində yaşatmağı ilə seçilir. Lakin yazıçı Ağakərimin yaradıcılıq dünyası ilə şəxsi xarakteri və həyat prinsipləri arasında fərqi sezmək çox çətindir. Bu da müəllifin səmimiyyətindən irəli gəlir. Bu cür təbii bütövlüyü yazıçını yaxından tanıyanlar onun bəzi əsərlərindəki müəllif ricətlərinin ilk oxunuşundan da tam aydınlığı ilə görə bilirlər.

Müəllifin yaratdığı rəngarəng obrazlar qalereyası cəmiyyətin bütün sosial təbəqələrini əhatə edir. Bu canlı və təkrarsız portretlər arasında dünya görmüş müdrik qoca da var, uşaqlıqdan atılmışlıq məşəqqətlərindən keçib namusla, şərəflə yaşamaq yolunu seçənlər də var, soyunun, elinin, obasının əsrlərdən bəri qoruyub saxladığı müqəddəs dəyərləri utanıb-çəkinmədən ayaqları altına atanlar da var. Yazıçının vətəndaşlıq mövqeyini, onun el-oba təəssübkeşliyini əsərlərində ürək yanğısı ilə təsvir etdiyi insan mənəviyyatının iflası və bunun gətirdiyi fəlakətlərdən görmək o qədər də çətin deyil.

Ağarəhim müəllim uzaqgörən kollektiv rəhbəri, müdrik ağsaqqaldır. O, mümkün problemlərin, münaqişələrin, habelə mübahisəli məsələlərin həllini bəzi insanlar kimi başqalarının üzərinə atmağı xoşlamır. Gələcəkdə hansısa fəsadlar doğura biləcək hər bir məsələni, nə qədər də ağır olsa, özü vaxtında həll etməyə çalışır. Bunları o, özünə mənəvi borc hesab edir.

Ağarəhim müəllim haqqında çoxları yazıb, yəqin ki, bu arada daha çox yazılacaqdır. Biz bu söz yarışından uzağıq və möhtərəm dostumuzu ideallaşdırmaq fikrində də deyilik. Bu ilk növbədə onun özünə xoş görünməz. Aydın məsələdir ki, ən işıqlı şəxsiyyətlər belə qüsurdan xali deyildir. Ağarəhim müəllimi yaxından tanıyanlar yaxşı bilirlər ki, o, təmtəraqlı və bəlağətli tərifləri bəyənmir, bunların acı fəsadlarını o çoxlarımıza dəfələrlə xatırlatmışdır. Lakin insanın əməyinə, ləyaqətinə ədalətli qiymətin verilməməsi kimi haqsızlıqlarla o qətiyyən barışmaz.

Əziz qardaşımız ömrünün müdrik və məhsuldar çağını yaşayır. O, bir ziyalı kimi xalqı üçün, vətəni üçün əlindən gələni etməyə çalışıb və qədirbilən cəmiyyət üzvləri bunu dəyərləndirmişdir. O həm də qayğıkeş ağsaqqal kimi yaxınlarından, dostlarından heç nəyini əsirgəməmişdir. Bir sözlə, böyük qəlb sahibi olan mehriban qardaşımıza, bu işıqlı şəxsiyyətə sidqi ürəkdən Ulu Tanrıdan dünyanın ən qiymətli neməti olan can sağlığı arzulayırıq! Qoy, qüdrətli Yaradan onu bir daha səhhət sıxıntılarına salmasın!